# 525-ci qəzet

16 avqust 2012-ci il, cümə axşamı, №147 (3703). Qiymәti 20 qәpik

www.525.az


# Manatın dizaynı dəyişir

## MƏRKƏZİ BANK MİLLİ VALYUTADA PUL NİŞANLARININ ETİBARLIĞINI VƏ CƏLBEDİCİLİYİNİ YÜKSƏK SƏVİYYƏDƏ SAXLAMAQ ÜÇÜN MÜVAFİQ LAYİHƏNİN İCRASINA BAŞLAYIB




Azərbaycanda pul nişanlarının dizaynı və mühafizəsi daha da təkmilləşdiriləcək. "APA-Economics"in məlumatına görə, bu barədə Azərbaycan Mərkəzi Bankının Azərbaycanın milli valyutası — manatın tədavülə buraxılmasının 20 illiyi münasibətilə yaydığı məlumatda bildirilir. Məlumatda deyilir ki, Mərkəzi Bank milli valyutada pul nişanlarının etibarlığını və cəlbediciliyini yüksək səviyyədə saxlamaq üçün müasir tələblərə cavab verən növbəti nəsil pul nişanlarının dizayn və mühafizə fəlsəfəsinin hazırlanması ilə əlaqədar müvafiq layihənin icrasına başlayıb.

Xatırladaq ki, hazırda tədavüldə olan pul nişanları 2006-cı ildən, denominasiya nəticəsində tətbiq edilib. Bu proses Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci il tarixdə "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" imzalanmış Fərmana uyğun olaraq həyata keçirilib. Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır. Manatın emissiyası və tədavüldən çıxarılması hüququ yalnız dövlətin müstəsna mülkiyyətində olan Mərkəzi Banka mənsubdur.

Yeni Azərbaycan manatı 28 dekabr 2005-ci ildə ölkə ictimaiyyətinə təqdim olunub. Hazırkı manat Mərkəzi Bankın sifarişi əsasında Vitam Reklam Şirkəti tərəfindən hazırlanıb.

# Kəmaləddin Heydərov Zaqatalada müşavirə keçirdi

## "ZƏLZƏLƏ BÖLGƏSİNDƏ MƏKTƏB BİNALARI SENTYABRIN 15-DƏK, TİKİNTİSİNƏ ƏVVƏLLƏR BAŞLANAN FƏRDİ EVLƏR İSƏ OKTYABRIN ORTALARINADƏK İSTİFADƏYƏ VERİLƏCƏK"

"Zəlzələ bölgəsində məktəblərin tikintisini yəqin ki, tədris ilinin başlanğıcına — sentyabrın 15-dək yekunlaşdıracağıq. Komissiyaların verdiyi ilk rəylər əsasında tikintisinə başlanan fərdi evlərin inşası isə hesab edirik ki, oktyabrın ortalarına başa çatacaq". APA-nın yerli bürosunun məlumatına görə, bunu fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Zaqatala Rayon İcra Hakimiyyətində əlaqədar qurumların nümayəndələri və tikinti təşkilatları rəhbərlərinin iştirakı ilə keçirilən müşavirədən sonra jurnalistlərə açıqlamasında deyib. Nazir bildirib ki, sonradan tikintisinə başlanan evlər də soyuqlar düşənədək tikilib əhaliyə təhvil veriləcək. K. Heydərov müşavirədən əvvəl rayonların İcra Hakimiyyəti başçıları və iş icraçıları ilə birlikdə tikinti aparılan ərazilərə baxış keçirdiklərini deyib: "Tikinti işlərinin sürəti normaldır. Komissiyaların verdikləri ilk rəylər əsasında demək olar ki, hər yerdə tikinti işlərinə başlanıb. Əhalinin müraciətlərinə əsasən, komissiyalar hələ də yerlərdə yoxlamaları davam etdirir, fərdi evlərə təkrar baxış keçirilir. Hazırda zəlzələ bölgəsində 12 işçi qrupu fəaliyyətini davam etdirir".

Nazirin sözlərinə görə, artıq 3200-ə yaxın evdə tikinti işlərinə başlanıb: "Təkrar yoxlamalar zamanı Şəki də daxil olmaqla, 4 rayonda daha 513 fərdi evin qəzalı vəziyyətə düşdüyü müəyyənləşib və hazırda onların da tikintisinə başlanıb. Eyni zamanda, əlavə olaraq 2 mindən artıq evin bərpa və gücləndirməyə ehtiyacı olduğu müəyyən edilib. Bərpa-gücləndirmə işləri də tikinti şirkətləri tərəfindən həyata keçiriləcək".

# Bu gün hava necə olacaq?

Bakı və Abşeron yarımadasında avqustun 16-da hava şəraitinin əsasən günəşli keçəcəyi gözlənilir. Şimal küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu gecə 23-28, gündüz 36-38, bəzi yerlərdə 40 dərəcə isti təşkil edəcək. Abşeronun çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 26-27, Buzovna, Mərdəkan, Şüvəlanda 27-28, Türkan, Hövsan, Şıx, Sahildə 29-30 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında avqustun 16-da hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 36-39, bəzi yerlərdə 42, dağlarda gecə 14-18, gündüz 30-35 dərəcə isti olacaq.

Avqustun 16-da hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Temperatur rejimində mühüm dəyişiklik gözlənilmir. Zəif cənub-şərq küləyi avqustun 17-də arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Temperatur ötən günlərə nisbətən 3-5 dərəcə aşağı enəcək.

## Prezident iftar mərasimində iştirak edib

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə avqustun 14-də öz iqamətgahında iftar süfrəsi açıb. APA-nın məlumatına görə, iftar mərasimində Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib. İftar mərasimi Qurani-Kərimdən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb.

A. Paşazadə çıxış edərək, Ramazan ayı münasibətilə açılan iftar süfrəsinə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib. Şeyxülislam, həmçinin mərasimdə iştirak edən din xadimlərinə təşəkkür edib. Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının rəhbəri Aleksandr Ata, Rusiya Federasiyası Qaraçay-Çərkəz və Çeçenistan respublikalarının müftiləri İsmayıl Berdiyev və Sultan Mirzəyev mərasimdə çıxış edərək, Azərbaycanın İslam həmrəyliyinin möhkəmlənməsinə, beynəlxalq aləmdə dinlərarası dialoqun inkişafına verdiyi töhfələri yüksək qiymətləndirib və təbriklərini çatdırıblar.

Prezident İlham Əliyev ənənəyə çevrilən iftar süfrəsini cəmiyyətin vahidliyinin, ümumi amallar naminə ölkəmizdə dövlətlə din arasında sıx birliyin bariz nümunəsi kimi dəyərləndirib. Dövlət başçısı Azərbaycanda dinlərarası dialoqun nümunəvi xarakter daşıdığını, ölkəmizdə bütün millətlərin nümayəndələrinin bir ailə kimi yaşadıqlarını qeyd edib.

Prezident bəşəri dəyərlərə hörmətlə yanaşan, beynəlxalq birliyə inteqrasiya edən Azərbaycanın İslam həmrəyliyinə də töhfələrini əsirgəmədiyini vurğulayıb. Azərbaycanın sosial-iqtisadi uğurlarından danışan ölkə başçısı XXX London Yay Olimpiya Oyunlarında idmançılarımızın uğurlu çıxışlarını ölkəmizin hərtərəfli inkişafının əyani nümunəsi və bu sahənin tərəqqisi üçün dövlət səviyyəsində aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi kimi dəyərləndirib.

Prezident iftar mərasimi iştirakçılarına və xalqımıza Ramazan ayı münasibətilə ən xoş arzularını çatdırıb.

Sonra iftar süfrəsi açılıb.

## Elmar Məmmədyarov İslam Zirvə Toplantısında iştirak edib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Səudiyyə Ərəbistanı Krallığında keçirilən İslam Zirvə Toplantısının Dördüncü Fövqəladə Sessiyasında iştirak edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Zirvə Toplantısının sessiyası zamanı Suriya, Fələstin, Myanmar (Raxinya müsəlmanlarına qarşı zorakılıq) və Malidəki vəziyyət müzakirə edilib.

Sessiyanın sonunda Yekun Bəyannamənin və eyni zamanda Fələstin, Myanmar, Suriya və Mali ilə bağlı qətnamələrin qəbul edilməsi nəzərdə tutulur.

## Dmitri Roqozin Qəbələ RLS-ə görə Azərbaycana gəlir

Rusiya baş nazirinin müavini Dmitri Roqozin Azərbaycana gəlir. APA-nın məlumatına görə, bu barədə D. Roqozin avqustun 15-də öz "Twitter" səhifəsində məlumat verib. O, Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşəcəyini bildirib. "İndi Bakıya, Prezident İlham Əliyevlə görüşə uçuram", — deyə səhifəsində qeyd edən D. Roqozin səfər zamanı hansı məsələləri müzakirə edəcəyini açıqlamayıb.

Qeyd edək ki, D. Roqozin Rusiya hökumətində hərbi-sənaye sahəsinə nəzarət edir. Məhz bu amilə görə onun Bakıda Qəbələ RLS-in icarə müddəti ilə bağlı məsələləri də müzakirə edəcəyi ehtimal olunur.

## Ermənilər ABŞ-dan yardım istədilər

Amerika Erməni Milli Komitəsi (ANKA) ABŞ Konqresi və Dövlət Departamentini Suriya ermənilərinə yardım göstərməyə çağırıb. APA-nın erməni mətbuatına istinadən verdiyi məlumata görə, ANKA-nın icraçı direktoru Aram Amparyan bildirib ki, komitə Konqres və Dövlət Departamentinə təsir göstərərək, Suriya xristianlarına, Suriya və Yaxın Şərq erməni cəmiyyətlərinə yardım edilməsi istiqamətində işləri davam etdirəcək.

# PKK Türkiyə millət vəkilini sərbəst buraxıb



PKK terror təşkilatının qaçırdığı Cümhuriyyət Xalq Partiyasından (CHP) olan millət vəkili Hüseyn Aygün sərbəst buraxılıb. APA-nın Türkiyə KİV-inə istinadən verdiyi məlumata görə, millət vəkili ona fiziki güc tətbiq edilmədiyini bildirib: "Mənə sayğılı davrandılar, siyasi təbliğat apardılar, savaşın gərəksiz olduğunu, öz mübarizələrinin də çox mənasız olduğunu bildiklərini dedilər. Mənə bitərəf millət vəkili kimi fəaliyyət göstərməyimin lazım olduğunu dedilər, mən də silah altında belə qərar verməyəcəyimi, CHP-də fəaliyyətimi davam etdirəcəyimi bildirdim. Kürd probleminin parlamentdəki 4 partiyanın bir araya gəlməsi ilə həll edilə biləcəyini söylədilər. Mənə yönəlmiş hansısa bir təhdid yox idi. Tökülən qanın dayandırılması üçün CHP-dən və məndən daha çox hərəkət gözlədiklərini dedilər. Yolumuzu kəsən qrup məni tanıyırdı. Mənə qarşı güc tətbiq edilmədi, silah belə tuşlamadıqlarını dedilər. Əslində müqavimət göstərə bilərdim. Amma arxadan gələn maşınlar çoxaldıqca, gərginlik yarana bilərdi, heç kimin canını təhlükəyə atmaq istəmədim.

6-7 saat piyada getdik. Mənim də aşiq olduğum Dərsim dağlarında qaldıq. 6-7 nəfərlik gənclər idi, kaş ki, onlar da bu cəmiyyətdə yer alıb, universitet oxusaydılar. Səhər yuxudan qalxdığımda bir aran bölgəsində idim. Saçımın telinə belə zərər gəlməməsi üçün təlimat verildi. Məni yola salanda sarılıb öpdülər. "Buradakı qardaşlarını unutma, abi" dedilər. Piyada gəldim. Çünki mən Dersim dağlarını qarış-qarış bilirəm".

Tunceli valisi Mustafa Taşkesen isə millət vəkilinin cangüdənsiz gəzməsinin öz tərcihi olduğunu bildirib. O, H. Aygünün proqramını əvvəlcədən valiliyə bildirmədiyini, özünün istəyi olmadan cangüdənlə təmin edilməsini "dövlətin nəzarəti" kimi dəyərləndirdiyini də vurğulayıb. Vali daha sonra H. Aygünün proqramını və hərəkət marşrutunu sosial şəbəkələrdə paylaşmasını da tənqid edib.

Qeyd edək ki, CHP millət vəkili Hüseyn Aygün avqustun 12-də axşam saatlarında PKK terrorçuları tərəfindən Tuncelinin Ovacık rayonundan qaçırılıb.




“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# “Zaqatala” qəzeti: 90 yaşın astanasında

***BAŞ REDAKTOR İBRAHİM BƏXTİYAROĞLU:*** “QƏZET BU İLLƏR ƏRZİNDƏ 4 DƏFƏ ƏLİFBANIN, 3 DƏFƏ İSƏ ÇAP TEXNOLOGİYALARININ DƏYİŞMƏSİLƏ MEYDANA GƏLƏN ÇƏTİNLİKLƏRİ YAŞAMALI OLUB”

**“Zaqatala” qəzetinin taleyində elə iftixar etməli, qürur hissi keçirməli hadisələr var ki, bunlar barədə həyəcansız söz açmaq olmur”. Bu fikirləri “Zaqatala” qəzetinin baş redaktoru, Əməkdar mədəniyyət işçisi İbrahim Bəxtiyaroğlu rəhbərlik etdiyi mətbu orqan fəaliyyəti haqqında danışarkən bildirib. Onun sözlərinə görə, qəzet 1923-cü ilin martında fəaliyyətə başlayıb.**









**(Əvvəli ötən sayımızda)**

“Zaqatala” qəzeti fəaliyyətini bu gün də uğurla davam etdirir. Qəzet hər həftə oxucularının görüşünə gəlir, Zaqatala rayonunun ictimai-siyasi və iqtisadi-mədəni həyatını geniş surətdə əks etdirən müxtəlif səpkili yazıları oxucular maraqla qarşılayırlar. Baş redaktor İbrahim Bəxtiyaroğlu bildirir ki, qəzet redaksiyanın nəzdindəki kompüter mərkəzində yığılır və səhifələnir: “Qalan digər proseslər isə Bakı şəhərində, “Azərbaycan” nəşriyyatında tamamlanır. Qəzetimiz 1500 tirajla iki rəngdə çap olunaraq rayonumuzun bütün yaşayış məntəqələrini, idarə, müəssisə və təşkilatlarını əhatə etməklə yayılır.

Region mediası olaraq qəzetimizin işıq üzü görməsində bir sıra problemlərlə qarşılaşırıq. Belə ki, qəzetimiz də daxil olmaqla bu gün region mətbuatının maddi-texniki bazası arzuolunan səviyyədə deyil. Məsələn, 90 yaşını qeyd edəcək “Zaqatala” qəzetinin, çox təəssüf ki, bu günə kimi ayrıca binası yoxdur. İndiyədək qəzetin redaksiyası darısqal, normal iş şəraitindən uzaq bir məkanda yerləşib. Digər tərəfdən region qəzetlərinin maliyyə problemləri hələlik tam öz həllini tapmayıb. Bu da əmək haqlarının artırılmasına, yeni avadanlıqların alınmasına, qəzetin dövriliyinin artırılmasına ciddi əngəllər törədir. Ən ciddi problemlər sırasında regionda mətbəənin olmamasını da ayrıca qeyd etmək lazımdır. Mətbəənin olmaması səbəbindən qəzetlərin nəşr xərcləri ilbəil artır. “Zaqatala” qəzeti Bakı şəhərində nəşr olunduğundan əlavə vəsaitin xərclənməsi zərurəti yaranır. Bundan əlavə qəzetin oxuculara çatdırılmasında istər-istəməz əlavə vaxt itkisi meydana gəlir”.

Baş redaktor qeyd edib ki, rayon qəzetlərinin əksəriyyətində bu gün nisbətən yaşlı və təcrübəli əməkdaşlar çalışır: “Elə bizim “Zaqatala” qəzetinin yaradıcı heyətinin üzvləri 35-40 il iş stajına malik işçilərdir. Doğrudur, təcrübəli, jurnalistikanın sirrlərinə yetərincə bələd olan insanlarla işləmək nisbətən rahatdır. Lakin etiraf olunmalıdır ki, region qəzetləri gələcək uğurlu fəaliyyətlərini davam etdirmək üçün yeni media anlayışına malik, çevik və müasir informasiya-texnologiyasını geniş şəkildə istifadə etməyi bacaran, gənc və perspektivli kardlarla təmin olunmalıdır. Çox təəssüf ki, bu vəzifəni yerinə yetirmək əksər qəzetlərə, o cümlədən “Zaqatala” qəzetinə bu günədək müyəssər olmayıb. Biz qəzetimizə gənclərin gəlməsi, burada möhkəmlənməsi üçün tərəfimizdən hər bir addımı atmağa hazırıq. Lakin ara-sırada qəzetimizə təcrübə keçmək üçün gələn gənc jurnalistlərin nəzəri hazırlıqları aşağı səviyyədədir, onlarda seçdikləri peşəyə qarşı məhəbbət hissi azdır. Görünür, jurnalist kadrlarının hazırlığının əsaslı şəkildə yaxşılaşdırılması üçün respublika səviyyəsində daha ciddi addımlar atılmalıdır. Jurnalistlərin peşə hazırlığına diqqət ilk növbədə bu işlə məşğul olan jurnalistika fakültələri tərəfindən artırılmalıdır”.

İ.Bəxtiyaroğlu bildirib ki, region qəzetləri bu gün rayon icra hakimiyyətləri ilə əməkdaşlıq şəraitində fəaliyyətlərini davam etdirir. Onun sözlərinə görə, təsisçilərdən biri olaraq rayon icra hakimiyyətlərinin yerli qəzetlərə dəstəyinin artırılmasına hər zamankından indi daha çox ehtiyac hiss olunur: “Lakin reallıq elədir ki, bu gün rayon icra hakimiyyətləri yerli qəzetlərə birbaşa maliyyə dəstəyi vermək imkanından məhrumdur. 1996-cı ildə “Azərbaycan” qəzetində yerli qəzetlərin fəaliyyətinin mövcud durumunun müzakirəsinə həsr olunmuş səhifədə təklif etmişdik ki, region qəzetlərinin birbaşa maliyyələşməsi üçün rayon icra hakimiyyətlərinin smetasında vəsait ayrılması nəzərdə tutulsun. Günü bu gün də məsələnin bu şəkildə həlli açıq qalır. O ki qaldı yerli dövlət qurumlarından informasiyanın əldə olunmasına, burada elə bir çətinlik nəzərə çarpmır”.

Baş redaktor qeyd edib ki, bölgələrdə medianın inkişafı üçün dövlət səviyyəsində ayrıca bir proqramın qəbuluna ehtiyac var: “Çünki region mətbuatının hüquqi və iqtisadi əsaslarına dair bir çox məsələlər hələ də tənzimlənməmiş qalır. Rayon qəzetlərinin reklam bazarı, demək olar ki, yox səviyyəsindədir. Araşdırmalarımız göstərir ki, yerli idarə, müəssisə və təşkilatlar bir sıra reklam materiallarının məhz yerli qəzetlərdə dərc olunmasında daha çox maraqlıdırlar. Çünki reklam materiallarının yerli qəzetlərdə yerləşdirilməsi xərcləri daha ucuzdur və reklam materialları verənləri tam qane edir.

Bölgələrdə medianın inkişafı üçün atılacaq digər addım ən müasir çap texnologiyasına malik mətbəələrin yaradılmasıdır. Belə bir mətbəələrin regionlarda yaradılması yerli mətbuatın inkişafında önəmli rol oynaya bilər. Söhbət təkcə qəzet redaksiyaları üçün həyati əhəmiyyət kəsb edən, onsuz da az olan maliyyə imkanlarına qənaət etməkdən getmir. Bu günkü sürətli internet və onlayn media şəraitində qəzetlərin operativ şəkildə oxuculara çatdırılması daha çox aktuallıq kəsb edir. Bölgələrdə mətbəələrin yaradılması nəhayətdə bəzi qəzetlərin dövriliyini kəskin surətdə artıqmaq imkanı yarada bilər. Məsələn, “Zaqatala” qəzetinin çoxdandır ki, gündəlik qəzet nəşri barədə ayrıca layihəsi işlənib. Hesab edirik ki, müasir dünyagörüşünə malik zaqatalalı oxucular gündəlik rayon qəzetini almağı çox istərdilər. Vaxtaşırı bu barədə bizə müraciət edənlər də az deyil. Lakin reallıq elədir ki, biz bu gün düşündüyümüz və hazırladığımız gündəlik qəzet nəşri layihəsini mətbəələrin olmaması səbəbindən ərsəyə gətirə bilmirik”.

İ.Bəxtiyaroğlu respublikada ilk region qəzetlərindən olan “Zaqatala” qəzetinin gələn il 90 illik yubileyini qeyd edəcəyini diqqətə çatdırıb. Onun fikrincə, bu qəzetin kollektivi, o cümlədən zaqatalalılar üçün mühüm bir hadisədir: “Zaqatala” qəzeti 90 il ərzində mətbu sözün kəsərinin artırılmasına, jurnalist nüfuzunun və şərəfinin yüksək səviyyədə qorunmasına böyük səylər göstərib. Biz əminik ki, qəzetimizin 90 illik yubileyi Zaqatalamızın tarixində geniş iz qoyacaq bir hadisə kimi qeyd ediləcək. Bakı şəhərindən və regionlardan tədbirimizə çoxlu sayda qonaqların gələcəyi, bu unudulmaz anları bizimlə birgə bölüşəcəyi şəksizdir”.

**Bəxtiyar MƏMMƏDLİ**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# Şirvan şəhərinin qaz təchizatı yaxşılaşdırılır

ARDNŞ-nin “Azəriqaz” İstehsalat Birliyi ölkənin bütün bölgələri kimi, Şirvan şəhərinin də qaz təchizatının yaxşılaşdırılması və təbii qaz itkisinin aradan qaldırılması istiqamətində genişmiqyaslı tədbirləri davam etdirir. “Azəriqaz”dan verilən məlumata görə, şəhərin qaz şəbəkəsində əsaslı təmir və yenidənqurma işləri aparılır, istismara yararsız kəmərlər yenisi ilə əvəz olunur, istismar müddətini başa vurmuş qaz sayğacları dəyişdirilir, qaz kəmərlərinin və qaz sayğaclarının həyətyanı sahələrdən küçəyə çıxarılması və yeni yaşayış massivlərinin qazlaşdırılması işləri həyata keçirilir.

Görülən işlərin nəticəsi olaraq, Şirvan şəhərində 198683 metr uzunluğunda yeni qaz kəməri çəkilib, 327 ədəd yeni siyirtmə quraşdırılıb. Şəhərin Hacıqəhrəmanlı qəsəbəsinin və “Kənd evləri” massivinin qaz təchizatı şəbəkəsi yenidən qurulub, Hacıqabul Qazpaylayıcı Stansiyası və Muğan ölçü qovşağından şəhərə yeni daşıyıcı qaz kəmərləri çəkilib. Cari ilin yanvar-iyul ayları ərzində şəhərin Nizami, G.Şıxbalaoğlu, M.Hüseynzadə, Xaqani, Şirvan, Şəhidlər, M.Maqomayev, Vidadi, T.Ələkbərov, T.Bağırov, 1 May, E.Əzimov, İ.Qayıbov, Ş.Şükürov, Əli Bayramov, Mehmandarov küçələri və “Bağçılıq” massivində 37010 metr uzunluğunda müxtəlif diametrli qaz kəmərləri çəkilib və 329 qaz sayğacı həyətyanı sahələrdən kənara çıxarılıb, 2142 köhnə tipli qaz sayğacı yenisi ilə əvəz olunub, 312 vətəndaşın mənzilinə qaz sayğacı quraşdırılaraq qeydiyyata alınıb. İstehlakçıların qaz təminatının yaxşılaşdırılması üçün şəbəkədə tənzimləmə işlərinin aparılması təmin edilib, 1 ədəd yeni qaztənzimləyici şkaf və 130 ədəd müxtəlif diametrli siyirtmə quraşdırılıb. Hazırda şəhərin “Kənd evləri” massivinin M.Əsədov küçəsində, “Bağçılıq” massivinin Naxçıvan küçəsində, Xanlar, Nizami, M.Mirzəyev və Neftçilər küçələrində qaz kəmərlərində yenidənqurma işləri aparılır. Qaz itkisinin minimuma endirilməsi istiqamətində görülən tədbirlər sayəsində şəhər üzrə bu göstərici ötən illə müqayisədə 50 faizdən 10 faizədək azalıb. Eyni zamanda, 2011-ci illə müqayisədə satılmış qazın dəyərinin istehlakçılar tərəfindən ödənilməsi 92,3 faizdən 104,4 faizə, o cümlədən güzəştsiz əhali abonentləri üzrə 85,8 faizdən 110,3 faizə qalxıb.

**BƏXTİYAR**

## “İctimai Palatada təhsillə bağlı səsləndirilən tənqidlərin heç bir əsası yoxdur"

“Bu yaxınlarda İctimai Palata adlı qurum ölkəmizdə təhsil sahəsində vəziyyəti müzakirə edib. Bu müzakirələrdə səsləndirilən tənqidlərin heç bir əsası yoxdur. Həmin tədbirdə özlərini “universal” ekspertlər hesab edən adamlar “təhsil ekspertliyini” də öz üzərlərində sınaqdan keçiriblər”.

Təhsil nazirinin müavini Qulu Novruzov “525”ə açıqlamasında bildirib ki, İctimai Palatanın tədbirində Azərbaycan gənclərinin xaricdə təhsil alması ilə bağlı Dövlət Proqramı haqqında da əsassız fikirlər səsləndirilib: “Həmin qurumun bir nümayəndəsi Dövlət Neft Fondundan bu sahəyə kifayət qədər vəsait ayrıldığını bildirir və iddia edir ki, proqram üzrə təhsil alanların əksəriyyəti eyni regionun, eyni zümrənin təmsilçiləridirlər ki, onların da böyük əksəriyyəti Azərbaycana qayıtmırlar. Nə dərəcədə məsuliyyətsiz olmalısan ki, belə fikirlər səsləndirəsən. İnsan bilmədiyi məsələdən danışmamalıdır. Çox maraqlıdır ki, çıxış edənlərdən biri dövlət proqramı ilə yaxından tanış olduğunu desə də, nə qədər məntiqsiz, məsuliyyətsiz bəyanat səsləndirir. Bu adam əvvəllər də dövlət proqramı çərçivəsində xaricdə təhsil alanların yüksək vəzifəli məmur övladları olduğunu deyib. Mən bir daha qeyd edirəm ki, o, proqram çərçivəsində xaricdə ali təhsil almağa göndərilən 1200 nəfər tələbədən 12 nəfər məmur uşağının adını açıqlayarsa, mən onun haqlı olduğunu iddia edərəm. Amma məsələ burasındadır ki, bu proqramda sıravi vətəndaşların övladları iştirak edir. Yəni, sadə peşə sahiblərinin, təqaüdçülərin, müəllimlərin, işsiz və s. sadə ailələrin övladları proqram çərçivəsində xaricdə təhsil almağa göndərilirlər”.

Q. Novruzov bununla bağlı Nazirliyin hər cür araşdırma aparmağa hazır olduğunu bəyan edib. Müxalifətçilərə məsuliyyətsiz bəyanatlar səsləndirməməyi tövsiyə edən Q.Novruzov dövlət proqramı çərçivəsində oxuyan azərbaycanlı gənclərin sonradan xaricdə qaldıqları barədə iddiaları da təkzib edib. Onun sözlərinə görə, bu faktlar mövcud deyil: “Dövlət proqramı çərçivəsində xaricdə təhsil alanların sosial bazası ilə bağlı xüsusi araşdırmalar, təhlillər aparırıq və xaricə göndərilən gənclərin 98 faizi sadə ailələrin üzvləridir. Bəzi şəxslərin isə bilmədikləri məsələlər, proqramın təqaüdçüləri barədə belə qarayaxmalar danışması təəssüf doğurur. Ən acınacaqlısı odur ki, həmin “ekspertlər” bu sahə ilə yaxından tanış olduqlarını iddia edirlər. Onların diqqətinə bir məsələni çatdırmaq istəyirəm ki, Təhsil Nazirliyi dövlət proqramının təqaüdçülərinin seçimini aparmır. Nazirlik xarici dövlətlərin ali məktəbləri tərəfindən dəvət almış, onların qəbul şərtlərini ödəmiş və dövlət proqramının təqaüdünə müraciət etmiş namizədlərin uyğunluğunu yoxlayaraq Azərbaycan Prezidenti yanında Təhsil Komissiyasına təqdim edir. Burada seçim belədir ki, namizəd müraciət edərkən TQDK-nın balları əlində olur. Bu bal onlara uyğunluğun seçilməsində mühüm bir kriteriyadır. Bu o deməkdir ki, artıq seçimin birinci mərhələsi TQDK tərəfindən, ikinci mərhələsi isə xarici ali məktəblər tərəfindən aparılır. Təhsil Nazirliyi yalnız namizədlərin proqramın şərtlərinə uyğunluğunu yoxlayıb onları Azərbaycan Prezidenti yanında Təhsil Komissiyasına təqdim edir. Bu Komissiya tərəfindən namizədliklər təsdiq olunduqdan sonra tələbələrin təhsil yerlərinə göndərilmələri və təhsillərinin maliyyələşdirilməsi ilə bağlı prosedurlar həyata keçirilir”.

**S.QARAYEVA**

## Xaricdə təhsil almaq istəyənlərin sənəd qəbulunun müddəti artırılıb

Təhsil Nazirliyi “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində xarici ölkələrin ali məktəblərində təhsil almaq istəyən gənclər üçün sənəd qəbulunun müddətini uzadıb.

Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsindən verilən məlumata görə, sənəd qəbulu üçün son müddət avqustun 20-sidir. Amma qarşıdan gələn Ramazan bayramı ilə əlaqədar elektron ərizələrin (müvafiq anket forması) qəbulu avqustun 20-dək aktiv olacaq. Ərizəçilər elektron ərizələrini avqustun 24-ü saat 18.00-dək (24-ü də daxil olmaqla) nazirlikdə təsdiqlədə biləcəklər.

Müsabiqədə iştirak üçün sənəd qəbuluna mayın 1-dən başlanılıb. Müsabiqədə orta və ali məktəbdə təhsil aldığı dövrdə yüksək nailiyyətlər əldə etmiş Azərbaycan Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə təsdiq edilmiş “Xarici ölkələrdə təhsil alacaq Azərbaycan gənclərinin seçim qaydaları”na və Prezident yanında Təhsil üzrə Komissiyanın sərəncamı ilə təsdiq olunan “Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı”na uyğun olaraq xarici ölkələrin ali məktəblərində təhsil alan və ya şərtsiz təhsil almaq hüququ qazanan Azərbaycan vətəndaşları iştirak edə bilərlər.

2012-2013-cü tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq üçün biologiya, fizika, informasiya texnologiyaları, kənd təsərrüfatı, kimya, qədim dillər, mühəndislik, nanotexnologiya, neft sənayesi, riyaziyyat, tibb, turizm prioritet istiqamətlərdir.

**S.QARAYEVA**

## Boş qalan müəllim yerlərinə seçim başlayıb

Avqustun 14-dən etibarən orta məktəb və peşə liseylərində boş qalan və imtina olunan müəllim yerlərinə seçim başlayıb. Təhsil Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, ümumi təhsil müəssisələri və peşə liseylərindəki vakant yerlərə müəllimlərin işə qəbulu ilə bağlı müsahibə mərhələsi başa çatmış fənlər —fiziki tərbiyə, gənclərin çağırışaqədərki hazırlığı, rus dili və ədəbiyyatı, rus dili, fransız dili, alman dili, musiqi və nəğmə, əmək hazırlığı, təsviri incəsənət və rəsmxət, coğrafiya, fizika, informatika üzrə boş qalan və imtina olunan yerlərin seçimi olacaq. Müsabiqədə iştirak edərək heç bir yerə qəbul olunmayan və ya qəbul olunduğu yerdən imtina edən iştirakçılar avqustun 18-dək “Şəxsi səhifə”lərinə daxil olmaqla ən çoxu 4 yer seçə bilərlər. Həmin müddət ərzində iştirakçılara seçimlərini dəyişmək imkanı da verilir. Seçim etmək imkanı avqustun 18-də saat 18.00-da başa çatır və yerləşdirmə aparılır. Yerləşdirmənin nəticələri dərhal bu mərhələdə iştirak edənlərin “Şəxsi səhifə”lərinə göndərilir. İşə qəbul olunanlar, imtahan nəticələri ləğv edilənlər və müəyyənləşdirilmiş keçid balını toplamayanlar bu mərhələdə iştirak edə bilməzlər.

**S.QARAYEVA**

## Bəyan olunmayan qızıl, mobil telefon və aksessuarlar aşkar olunub

“Sınıq Körpü” gömrük postunda Gürcüstandan Azərbaycana gələn Azərbaycan vətəndaşı Nadir Abdullayevin idarə etdiyi “VAZ-21074” markalı minik avtomobilinə gömrük nəzarəti həyata keçirilib. Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, sənədlərə baxış zamanı nəqliyyat vasitəsinin Azərbaycan vətəndaşı Elviz Qurbanov tərəfindən Gürcüstan istiqamətində aparıldığı və Nadir Abdullayevin isə həmin avtomobili idarə etmək hüququnu təsdiq edən sənədinin olmadığı müəyyən edilib. Bundan başqa, yoxlama zamanı nəqliyyat vasitəsindən müxtəlif markalı, cəmi 82 ədəd mobil telefon və müxtəlif mobil telefonlara aid aksesuarlar-160 ədəd akkumlyator, 183 ədəd qidalandırma cihazı, 184 ədəd qulaqcıq və 17 ədəd karton qutu aşkar olunub. Həmçinin nəqliyyat vasitəsinin salonunda 2 ədəd kustar üsulla hazırlanmış 35BD444 nömrə nişanı gömrük nəzarətindən gizlədilmiş şəkildə aşkar edilib.

Eyni zamanda “Sınıq Körpü” gömrük postunda Gürcüstandan Azərbaycana gələn Azərbaycan vətəndaşı Emin Əliyevin etibarnamə ilə idarə etdiyi “Mercedes Benz E240” markalı minik avtomobilinə gömrük nəzarəti həyata keçirilən zaman həmin nəqliyyat vasitəsinin salonunda çay qutusunun içindən qızıl zinət əşyaları-2 ədəd boyunbağı, 2 ədəd qolbağı, 3 ədəd üzük və 2 cüt sırğa gömrük nəzarətinə bəyan olunmamış şəkildə aşkar edilərək götürülüb.

**BƏXTİYAR**

# Yağış sularının axıdılması üçün yeni kollektor tikilir

“Azərsu” Açıq Səhmdar Cəmiyyəti Bakı şəhərində kanalizasiya infrastrukturunun və ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində kompleks tədbirləri davam etdirir. ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirlər planına uyğun olaraq Bakı şəhəri Yasamal rayonu Akim Abbasov küçəsi boyunca yağış sularının axıdılması üçün yeni kollektor tikilir. Yeni kollektor “+ 160 Qərb” su anbarının yaxınlığından başlayaraq A. Abbasov və Ş. Mehdiyev küçələrinin kəsişməsinə qədər çəkiləcək və burada 700 mm diametrli mövcud yağış kollektoruna birləşdiriləcək. Bununla da həmin ərazidəki yağış sularının kanalizasiya sularına qarışmadan birbaşa Xəzər dənizinə axıdılması mümkün olacaq. Ümumi uzunluğu 1300 metr olan kollektor 200 və 500 mm diametrli polietilen borularla çəkilir. Layihə çərçivəsində ərazidə toplanan yağış sularının axıdılması üçün yağış barmaqlıqları da quraşdırılır.



Tikinti-quraşdırma işlərinin avqust ayının sonuna qədər başa çatdırılması nəzərdə tutulur.

Qeyd edək ki, intensiv yağıntılar zamanı A.Abbasov küçəsində yağış sularının axıdılmasında problemlər yaranırdı. Yeni kollektor istismara verildikdən sonra belə problemlər tamamilə aradan qalxacaq.

**BƏXTİYAR**

# "Mən o hadisənin iştirakçısı deyil, şahidi olmuşam"

***MİKAYIL CABBAROV:*** "HÜRRİYYET" QƏZETİNƏ VƏ FATİH ÇEKİRGEYƏ QARŞI TÜRKİYƏ CÜMHURİYYƏTİNİN MƏHKƏMƏSİNDƏ İDDİA QALDIRMAQ HÜQUQUMU ÖZÜMDƏ SAXLAYIRAM"

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Mikayıl Cabbarov Türkiyənin "Hürriyyet" qəzetinin 13-14.08.2012-ci il tarixli saylarında Fatih Çekirgenin imzası ilə haqqında dərc olunmuş yazıya münasibətini açıqlayıb. M.Cabbarov Türkiyə mətbuatında barəsində yayılmış məlumatı təkzib edərək açıqlamasında hakimiyyət strukturlarında çalışdığı müddətdə etik davranışı ilə bağlı hər hansı irad və ya qınaq obyekti olmadığını, istənilən yerdə və şəraitdə insanların şəxsiyyətinə, ləyaqətinə hörmətlə yanaşdığını, əvəzində də bunu tələb etməyə haqqı olduğunu bildirib: "Türkiyənin "Hürriyyet" qəzetinin 13-14.08.2012-ci il tarixli saylarında dərc olunmuş jurnalist Fatih Çekirgenin yazıları iftira və yalandır. Təyyarəyə 19 ədəd bilet alınması, dostlarımla birgə "biznes klass" salonunun bağladılması jurnalistin uydurmasından başqa bir şey deyildir. O ki qaldı bəhs olunan hadisəyə, onun iştirakçısı deyil, şahidi olmuşam".



Açıqlamasında qoruğun rəisi hadisənin təfərrüatlarını qeyd edib: "Təyyarənin "biznes" salonuna bilet alıb ailəmlə məzuniyyətə gedirdim. Qonşu cərgədə başqa bir azərbaycanlı ailəsi azyaşlı uşaqları ilə birlikdə oturmuşdu. Uçuş zamanı stüardessa ilə həmin ailənin başçısı arasında xırda mübahisə yaranmış, azərbaycanlı sərnişin stüardessanın hərəkətlərindən şikayət edəcəyini bildirmişdi. Məsələnin mənə aidiyyəti olmadığından onların söhbətinə qarışmamışam və hər hansı xoşagəlməz sözlərin işlədilməsinin şahidi olmamışam. Qeyd etmək istərdim ki, həmin şəxs nə dövlət məmuru, nə siyası partiya üzvü, nə də ki mənim ailə üzvüm deyildi.

"Hürriyyet" qəzetinin jurnalisti birinci cərgədə oturduğundan, arxada baş verənləri, kimin mübahisə etdiyini görmək iqtidarında olmadığından hadisənin təsvirində səhvə yol verib. Düşünürəm ki, peşəkar olduğunu sübut etmək üçün öz səhvini düzəldəcək və yazılan yalanları təkzib edəcək.

Öz şərəf və ləyaqətimin müdafiəsi üçün "Hürriyyet" qəzetinə və Fatih Çekirgeyə qarşı Türkiyə Cümhuriyyətinin məhkəməsində iddia qaldırmaq hüququmu özümdə saxlayıram".

Qeyd edək ki, F. Çekirge "Hürriyyet" qəzetində Azərbaycandan bir məmurun təyyarədə stüardessanı hədələdiyini, onu işdən qovduracağını bildirdiyini, davranış qaydalarına əməl etmədiyini yazıb. İkinci gün isə bu məmurun "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Mikayıl Cabbarov olduğunu qeyd edib.

M. Cabbarov F. Çekirgeyə və "Hürriyyet" qəzetinə açıq məktub ünvanlayaraq, dərc edilməsini də tələb edib.

M.Cabbarov tərəfindən "Hürriyət"ə ünvanlanan açıq məktubda bildirilib: "Hörmətli Fatih Çekirge, mənim adım Mikayıl Cabbarovdur və mən bu məktubu "Hürriyyet" qəzetində 13 avqust 2012-ci il və 14 avqust 2012-ci il tarixlərdə dərc olunmuş, müvafiq olaraq, "Sen menim kim olduğumu bilir misen?" və "İşte o mühim gişi" sərlövhəli yazılarınıza cavab olaraq yazıram. Adıçəkilən yazılar iftira və həqarət xarakterli ifadələrlə doludur və mən bunlara aşağıdakı cavabları verməyə məcburam: Həqiqətən, mən ailə üzvlərimlə birlikdə 11 avqust 2012-ci il tarixdə Türk Hava Yolları reysi ilə İstanbuldan Barselonaya uçurdum. Məqalənizdə qeyd etdiyiniz kimi, mənim bu reysə guya 19 "biznes klass" bileti almağım sadəcə böhtandır. Mənimlə birgə uçan ailə üzvlərimin sayı 5 nəfər idi. Əslində, həmin təyyarənin "biznes klass" salonunda ümumilikdə 20 yer var. Səhv etmirəmsə, siz 1-ci sırada tennis akademiyasına yollanan 13-15 yaşlı bir yeniyetmə oğlanla oturmuşdunuz (C və D yerləri). Orada həm də Rusiyadan bir ailə (5-ci sırada 3 nəfər), bir fransız (məndən sonrakı 4A yeri) və başqa ailələr də (məsələn, arxanızda, 2-ci sırada oturmuş cütlük) var idi. Mən 4B yerində oturmuşdum ki, övladlarım həyat yoldaşımın yanında otura bilsinlər (onlar 2A və B, eləcə də 3A və B yerlərini tutmuşdu). Sadə hesablamalar göstərir ki, mənim əldə etdiyim biletlərin sayına dair dedikləriniz açıq-aşkar iftiradır.

Mənim stüardessaya müxtəlif istək və tələblər ünvanlamağım da böhtandır — o cümlədən, guya kiminsə "ekonom klass"dan "biznes klass"a köçürülməsi tələbi. Mən belə bir istək ifadə etməmişəm. Yazınızda qeyd etdiklərinizin tam əksi olaraq, mən heç vaxt hədə və təhdid xarakterli ifadələr işlətməmişəm. Doğrudan da, 4C yerində əyləşmiş sərnişin (keçidin o tayında) müəyyən narazılıqlar ifadə edirdi, ancaq mən bu narazılıqların haqlı və ya haqsız olduğuna dair fikir yürüdə bilmərəm. Mən söhbəti əvvəldən axıradək eşitmişəm. Sərnişin onun yuxuya getmiş və dayəsi ilə bir yerdə oturmuş balaca oğlunu oyatmamağı xahiş edirdi. O həm də dayənin elə həmin yerdə, sərnişinin yanında qalmasına icazə verilməsini istəyirdi. Stüardessa bu xahişləri rədd etdi və dayə öz yerinə qayıtmalı oldu. Sərnişin isə dedi ki, o, bununla bağlı şikayət edəcək. Mən bu mübahisələrə bir dəfə də olsun müdaxilə etməmişəm. Mən bu sərnişinin kim olduğunu bilirəm. Elə THY da həmçinin, 4C yerini tutmuş bu sərnişinin kimliyi haqda müvafiq qeydiyyat sənədləri sayəsində tam məlumata malikdir. Bu insan nə hökumət üzvüdür, nə də hər hansı bir siyasi partiyanın üzvü. Onun mənim ailəmə də heç bir aidiyyatı yoxdur. Bilavasitə bu mübahisə bitdikdən sonra stüardessa sərnişinlərə yemək gətirdi və mən onunla kifayət qədər müsbət tərzdə söhbət etdim. Narazı sərnişin ona göstərilən xidmətlərdən imtina etdikdə, stüardessa hətta vasitəçilik etməyim üçün mənə müraciət etdi. O xahiş etdi ki, mən həmin sərnişindən ona qəzəblənməməsini rica edim. Mən isə cavabında bildirdim ki, mən başqalarına necə davranmalı olduqlarına dair göstəriş verə bilmərəm. Bu, stüardessa ilə dialoq apardığım YEGANƏ hal idi. Çox güman ki, mənim stüardessa ilə danışdığımı məhz onun yemək gətirdiyi vaxt görmüsünüz. Mənim kimliyim və fəaliyyətim haqqında məlumat asanlıqla İnternetdən əldə oluna bilər. Mən, hökumətimiz və dövlət başçımız kimi, demokratik dəyərləri tam qəbul edirəm. Mən mətbuat azadlığına hörmətlə yanaşıram. Mən insan azadlıqlarına hörmət edirəm. Mən öz peşəkar borcuma da ləyaqətlə yanaşıram. Eyni zamanda özümə də hörmət edirəm. Ümid edirəm ki, siz də özünüzə hörmət qoya bilirsiniz. "Hürriyyet" Türkiyə mediasında tanınmış addır. Heç bir əsası olmadan siz mənə layiq olmadığım epitetlər qoşursunuz. Haqqımda təhqiramiz ifadələr işlətməyiniz bəs deyilmiş kimi, məqalənizdən çox da sevmədiyinizi anladığım Azərbaycan hökumətinə də qara yaxırsınız. Yazınızı oxuduqda təəssüratım bu oldu ki, siz həddinizi aşaraq təmsil etdiyim millətə, hökumətə qarşı təhqiramiz bənzətmələr aparırsız. Akademik türk dilini o qədər də yaxşı bilmədiyim üçün (qrammatik baxımından o, Azərbaycan dilindən fərqlənir), bəzi detallarda yanlışlığa yol vermiş ola bilərəm. Lakin mən ölkəm və millətimlə fəxr edirəm. Və bir azərbaycanlı kimi, bir ailə başçısı, ya da siyasi xadim kimi nə özümdən, nə də hərəkətlərimdən utanıram. Tələb edirəm ki, bu açıq məktub "Hürriyyet" qəzetinin növbəti sayında, eynilə təhqiramiz məqalənizin dərc edildiyi tərzdə və formatda, heç bir düzəliş edilmədən dərc olunsun. Əks təqdirdə şərəf və ləyaqətimi qorumaq üçün Türkiyə qanunları və ya istənilən digər qanunlarla təsbit edilmiş bütün vasitələrdən istifadə etmək hüququnu özümdə saxlayıram.

Türk Hava Yollarından 11 avqust tarixli TK 1855 reysinin səsyazma materiallarını tam olaraq "Hürriyyet" qəzetinə və mənə ötürülməsini xahiş edirəm. Bu çox vacibdir və aşağıdakı səbəblərə bağlıdır. Birincisi, mənim davranışım sizin məkrli yazınızda göstərildiyi kimi olubsa, o zaman ekipaj üzvünün təhqir edilməsinə görə THY "qara siyahısına" daxil edilməyimin faktiki olaraq bir addımlığında olmalıyam. İkincisi, hal-hazırda mən böhtan və iftiraya məruz qaldığım üçün maraqlarımın müdafiəsini təmin etmək məqsədilə Türkiyə məhkəməsinə müraciət etmək üçün vəkil tutmağı düşünürəm. Sorğumun THY tərəfindən təmin olunması ədalətin bərpa edilməsinə bir dəstək olardı. Üçüncüsü, iki türk əsilli yetkin şəxs bu və ya digər faktlara dair razılığa gələ bilmirlərsə, bu o deməkdir ki, onlardan hansı birisə yalan danışır. Bu, mən deyiləm.

Eyni zamanda diqqətinizə çatdırıram ki, öyrənməyi, dərs almağı özümə heç vaxt ayıb bilməmişəm. Yazırsınız ki, stüardessa mənə dərs verdi. Yanılırsınız. Əslində yazılarınızı oxuduqdan sonra gəldiyim nəticə bu oldu ki, bəzi insanlar uydurduqları hadisələrdən ümumiyyətlə səhv nəticələr çıxara bilərmiş. Yazılarınız Azərbaycan mediasında geniş əks-səda doğurduğuna və onlara xeyli istinad edildiyinə görə, düşünürəm ki, bu açıq məktubun bir nüsxəsinin yerli mətbuata da ötürülməsi düzgün olardı. Bütün bu hadisələrin mənim məzuniyyətim dövründə baş verməsinə baxmayaraq Azərbaycan ictimaiyyəti qarşısında bir məmur kimi informasiya vermək borcumu yerinə yetirməyimi vacib sayıram. Məsələ ilə bağlı bu gün mənə xeyli sayda zəng gəlmişdir. Gizlətməli heç bir şey yoxdur. Sadəcə olaraq ümid etmək istərdim ki, bütün bu səhvlərə qərəzli niyyətiniz olmadan yol vermisiniz".

**S.MÜRVƏTQIZI**

# Abituriyentlərin ixtisas seçimi bu gün yekunlaşır

Azərbaycanın ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanlarının nəticələrinə əsasən, müsabiqə şərtlərini ödəyən abituriyentlərin ixtisas seçimi avqustun 16-da başa çatacaq.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) mətbuat xidmətindən verilən məlumata görə, dünən saat 10:00-dək həmin abituriyentlərdən 34081 nəfəri ixtisas seçimi ərizəsini təsdiq edib. Onlardan 29667-si Azərbaycan, 4414-ü rus bölməsi üzrədir. İ qrup üzrə 10416, II qrup üzrə 10774, III qrup üzrə 9289, IV qrup üzrə 3602 nəfər öz ixtisas seçimini edib. Avqustun 16-da göstərilən vaxta qədər ixtisas seçiminə buraxılmış bütün abituriyentlər ixtisas seçimi etməli və mütləq "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"ni təsdiqləməlidirlər. Ərizələrini təsdiqləməyən abituriyentlər müsabiqədə iştirak etmək hüququnu itirirlər. İxtisas seçimi mərhələsində abituriyentlər qəbul olmaq istədikləri ixtisasları seçib onların kodlarını "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edirlər.

Məlumatda bildirilib ki, avqustun 16-dan etibarən ali təhsil müəssisələrinin magistraturalarının boş qalan plan yerlərinə qəbul olanların qeydiyyatına başlanılır.

Qəbul olunanlar avqustun 24-dək sənədlərini qəbul olduqları təhsil müəssisəsinə təqdim edərək qeydiyyatdan keçməlidirlər. Həmin müddətdə qeydiyyatdan keçməmək bakalavrın müvafiq ixtisasa yerləşdirilməsindən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri ali təhsil müəssisəsinə göndərilməyəcək.

Qeyd edək ki, magistraturanın boş qalan plan yerlərinə qəbul olmaq üçün 667 bakalavr müraciət edib. Müsabiqə nəticəsində onlardan 346 nəfər magistratura səviyyəsi üzrə təhsil almaq hüququ qazanıb.

TQDK-dan qeyd olunub ki, avqustun 15-dən rezidenturaya ərizə qəbulu başlayıb. Ərizə qəbulu avqustun 24-dək davam edəcək və internet vasitəsilə aparılacaq. Namizəd şəxsiyyət vəsiqəsindən və "TQDK-nın virtual ödəmə kartı"ndan istifadə etməklə TQDK-nın müvafiq internet səhifəsinə (tqdk.gov.az/erizerezidentura) daxil olmalı və oradakı "Namizədin elektron ərizəsi" formasını doldurulmalıdır. Namizəd virtual ödəmə kartını internet ödəmə və ya 7725 SMS xidmətindən istifadə etməklə əldə edə bilər. Bundan sonra namizəd tələb olunan sənədləri müvafiq Sənəd Qəbulu Komissiyasına (SQK) təqdim edib "Namizədin elektron ərizəsi" formasını təsdiq etdirilməlidir. Azərbaycanda baza ali tibb təhsili olan şəxslər rezidenturaya qəbul olunmaq hüququna malikdirlər. Qəbul imtahanı test üsulu ilə iki mərhələdə keçiriləcək. İmtahanın birinci mərhələsi sentyabrın 8-də, ikinci mərhələsi sentyabrın 9-da keçiriləcək. İmtahanda iştirak etmək üçün namizəd sentyabrın 5-dən 7-dək olan müddətdə öz elektron ərizəsinə daxil olaraq, imtahanın hər bir mərhələsi üçün ayrılıqda "Namizədin imtahana buraxılış vərəqəsi"ni çap edib götürülməlidir.

**S.QARAYEVA**

# Ombudsmanın MPM Qrupu bir sıra müəssisələrə baş çəkib

Ombudsmanın tapşırığına əsasən MPM qrupu tərəfindən Səhiyyə Nazirliyinin Narkoloji Mərkəzinin məcburi müalicə şöbəsinə, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 17 saylı cəzaçəkmə müəssisəsinin cərimə təcridxanasına, Bakı istintaq təcridxanasına və 3 saylı istintaq təcridxanasına təkrar başçəkmə həyata keçirilib. Bu barədə Ombudsman Aparatının mətbuat xidmətindən məlumat verilib.

Başçəkmələrdə məqsəd əvvəlki baxışlar zamanı müəssisə rəhbərliyinə verilmiş tövsiyələrin icra vəziyyətinin araşdırılmasından, məcburi müalicə olunan xəstələrə məhkumlara və təqsirləndirilən şəxslərə münasibətdə rəftar hallarının və saxlanma şəraitinin yoxlanılmasından, eyni zamanda cərimə təcridxanasında saxlanılan şəxslərin qəbul edilməsindən ibarət olub. Məlumatda bildirilir: "Qeyd olunmalıdır ki, MPM qrupunun bu müəssisələrə əvvəl keçirdiyi başçəkmələr zamanı verilmiş tövsiyələr də nəzərə alınaraq, Ədliyyə Nazirliyinin tapşırığı ilə müəssisələrdə bir sıra işlər görülüb. 3 saylı istintaq təcridxanasına baxış zamanı, burada son bir ay ərzində xeyli işlərin görüldüyü müşahidə edilib. Belə ki, müəssisədə abadlıq işləri görülüb, kameralarda cari təmir yekunlaşıb, hər korpusda yeni hamam istifadəyə verilib. Havaların isti keçməsi ilə əlaqədar bütün kameralar sərinkeşlərlə təmin edilib.17 saylı cəzaçəkmə müəssisəsinin cərimə təcridxanasında saxlanılan 18 məhkumla təklikdə söhbət aparılaraq məhkumların cərimə təcridxanasında saxlanmasının qanuniliyini təsdiq edən sənədlərlə tanış olunub.Hər üç müəssisədə qəbul edilmiş məhkumlar rəftar və saxlanılma şəraitindən şikayət etməyiblər". MPM Qrupunun üzvləri Bakı istintaq təcridxanasında saxlanılan bir neçə təqsirləndirilən şəxslərlə görüşüblər. Onlar saxlanılma şəraitindən şikayət etməyiblər. Eyni zamanda, Hilal Məmmədov və Mehdi Şamilov barələrində aparılan istintaqdan narazılıqlarını bildiriblər. MPM Qrupunun üzvləri şəraitin daha da təkmilləşdirilməsi istiqamətində müəssisə rəhbərlərinə tövsiyələr verib. Başçəkmənin nəticəsi ilə bağlı Ədliyyə Nazirinə müraciət olunub.

**S.MÜRVƏTQIZI**

# Mehriban Əliyevanın təşəbbüsü ilə Pakistanın uşaq evlərinin sakinlərinə iftar süfrəsi təşkil edilib

Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistan baş nazirinin katibliyi nəzdində fəaliyyət göstərən "Pakistan Sweet Home" fondu tərəfindən bu ölkənin müxtəlif şəhərlərində yerləşən 11 uşaq evinin 1200 sakini üçün iftar süfrəsi təşkil edilib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən qəzetimizə verilən məlumata görə, Baraha Ko şəhərində təşkil olunmuş təntənəli mərasimdə Pakistanın birinci xanımı Nüsrət Parvez Aşraf və qızı, baş nazirin müşaviri Şahnaz Vazir Ali, "Pakistan Sweet Home" fondunun icraçı direktoru, tanınmış siyasətçi Zamurad Xan, Pakistan Milli Assambleyasının üzvləri, Azərbaycanın Pakistandakı səfirliyinin əməkdaşları, ölkənin aparıcı televiziya kanallarının nümayəndələri iştirak ediblər. Tədbirdə Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili, ölkənin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə Azərbaycanda və xarici ölkələrdə həyata keçirilən humanitar, təhsil və səhiyyə sahələrində layihələr barədə ətraflı məlumat veriib və Pakistanın zəlzələdən zərər çəkmiş Müzəffərabad şəhərində qızlar məktəbinin inşa edilməsi qeyd olunub : "Heydər Əliyev Fondu tərəfindən Pakistanda silsilə humanitar yardımlar proqramı çərçivəsində "Edhi Home" kimsəsizlər evində



sığınacaq tapan uşaqlara tibbi baxış və hepatit B virusuna qarşı peyvəndləşdirmə aparılıb, Peşavər şəhərində "Akbar Care" serebral iflic institutunda imkansızlar üçün pulsuz müayinə təşkil edilib, həmçinin Xayber Paxtunxva əyalətinin Laki Marvat şəhərinin qadınlar və uşaqlar xəstəxanasında açıq ürək əməliyyatları aparılıb, Hamza Fondu (Peşavər) üçün müasir qanköçürmə avadanlıq və laboratoriya ilə təchiz edilmiş təcili tibbi yardım maşını və 2000 ədəd qanköçürmə paketi alıb, Xayber Göz Fondunun yeni binasının inşası üçün maddi yardım edilib".

Tədbirdə ali qonaq qismində iştirak edən Pakistanın birinci xanımı Nüsrət Pervez Aşraf Mehriban Əliyevanın Pakistanda həyata keçirdiyi layihələrə, həmçinin Ramazan ayında kimsəsiz uşaqlara iftar süfrəsi təşkil etdiyinə görə dərin minnətdarlığını bildirərək bu aksiyanın uşaq evlərinin sakinləri üçün böyük mənəvi dəstək olduğunu vurğulayıb.

Pakistan baş nazirinin müşaviri xanım Şahnaz Vazir Ali öz müraciətində Mehriban Əliyevanın təşkil etdiyi genişmiqyaslı aksiyanı təqdirəlayiq adlandıraraq digər təşkilatları da bu təşəbbüsə qoşulmağa çağırıb.

"Pakistan Sweet Home" fondunun icraçı direktoru Zamurad Xan mərasimdə çıxış edərək Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevaya Ramazan sevincini kimsəsiz uşaqlarla bölüşdüyünə görə minnətdarlığını bildirib.

Konsert proqramı zamanı Pakistanın PTV dövlət televiziyası mərasim iştirakçılarından canlı yayımda müsahibələr alıb.

Tədbirin sonunda hər bir uşağa hədiyyə təqdim edilib. Bahara-Ko-da keçirilmiş tədbir "PTV", "ARY TV","Navai Vakt", "ATV", "Express News", "GEO NEWS", "CNBC Pakistan", "Aaj News","Dunya News" , "Channel-5" televiziya kanalları tərəfindən nümayiş etdirilmiş, "Navai Vakt", "Daily Janq", "National Herald Tribune", "Pakistan Observer", "Daily Times", "The Nation", "Frontier Post", "Daily Statesman"qəzetlərində, "APP",- "Lahore Times", "DNA News", "Online news" informasiya agentliklərin buraxılışlarında, həmçinin "Al-Bab" strateji araşdırmalar institutunun bloqunda işıqlandırılıb.

**S.MÜRVƏTQIZI**

# *Rasim Musabəyov:* "Rusiya yalnız vasitəçi deyil, həm də Qarabağ münaqişəsinin iştirakçısı və mənbəyidir"

"Rusiya Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı hər hansı yeni təşəbbüsün olmasına dair bəyanat verməyib. Bu ölkənin xarici işlər nazirinin müavini Qriqori Karasinin Moskvanın Qarabağ münaqişəsinin nizamlanması üçün əlindən gələni edəcəyinə dair bəyanatına gəlincə, Rusiyanın yüksək rütbəli rəsmi şəxsləri tərəfindən belə bəyanatlar 20 ildən artıqdır ki, səslənməkdədir. Lakin təcrübədə hər şey indiki "nə sülh, nə hərb" vəziyyətinin və ermənilərin Azərbaycan ərazilərində daha da möhkəmlənməsi üçün edilir". Bu barədə politoloq, millət vəkili Rasim Musabəyov mətbuatda çıxış edib. O deyib ki, Ermənistanın həm iqtisadi, həm də hərbi və diplomatik münasibətlər baxımından tam mənada Rusiyadan asılı olduğunu nəzərə alsaq, Moskva ermənilərin ilhaqçı və qəsbkar iştahalarını cilovlamaq və tərəflər üçün qarşılıqlı şəkildə məqbul sayılan kompromisə nail olunması ilə bağlı konstruktivliklərinin oyadılması üçün yetərli resurslara malikdir: "Lakin təcrübədə bunun əksi müşahidə olunur. Özünün təmənnasız kreditləri, qaz satışı ilə bağlı endirimli qiymətləri, pulsuz silah tədarükləri ilə Rusiya indiki İrəvan rejimini və onların güzəştə getməmək inadını möhkəmləndirməyə xidmət edir. Məncə, çox böyük səhv olan və Cənubi Qafqazda nəzarəti əldə saxlamaq vasitəsinə çevrilən separatçılığın dəstəklənməsi siyasəti nəticəsində Moskva Gürcüstana olan təsirini tamamilə itirdi və addımbaaddım Azərbaycanda da siyasi və iqtisadi mövqelərini itirməkdədir".



Rusiya prezidenti Vladimir Putinin Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərini təşkil edəcəyi ehtimalına toxunan politoloq deyib ki, Putin sələfi Dmitri Medvedyevdən fərqli olaraq Rusiyanın prezidenti kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına "təkan vermək" üçün daha böyük siyasi resurslara malikdir: "Lakin ilk addım baxımından Vladimir Putin bu "yükü" hələ ki, öz üzərinə götürmək iqtidarında deyil. Ola bilsin ki, onu buna Dmitri Medvedyevin öz iştirakı ilə ondan çox görüş təşkil etməsini və Azərbaycan və Ermənistan prezidentlərinin danışıqları üzrə şəxsi vasitəçilik səylərini qavrayan uğursuzluq vadar edir. Suriyadakı münaqişə, İran ətrafında artan gərginliyin də Rusiya liderini fasilə götürməyə və daha dəqiq desək şəxsi vasitəçilik təşəbbüslərinin vaxtı və konkret tərkibini hesablamağa vadar etdiyini də istisna etmək olmaz". Onun fikrincə, Rusiya təkcə vasitəçi deyil, həm də bir neçə mənada Qarabağ münaqişəsinin iştirakçısı və mənbəyidir: "Çünki bu münaqişə Rusiyanın Cənubi Qafqazda müstəmləkə genişləndirilməsi və müsəlman, türk çoxluğuna qarşı bu regiona Türkiyə və İrandan yüzminlərlə erməninin köçürülməsi və imperiya mövqelərinin daha da möhkəmləndirilməsinin əlavə nəticəsi oldu. Dağlıq Qarabağ muxtariyyətinin özü də Azərbaycan torpaqlarında Moskva bolşevik rəhbərliyi tərəfindən süni olaraq təşkil edilmişdi. Rusiya hərbçi və siyasətçiləri regionda baş verən hərbi toqquşmaların tez-tez bilavasitə iştirakçıları olurdular". Millət vəkili deyib ki, Rusiyanın münaqişə zonasına coğrafi yaxınlığı, onun regionu və yerli elitanı yaxşı bilməsi danılmaz faktdır: "Bakı və İrəvanda tam olaraq özlərinə hesabat verirlər ki, Moskvanın iştirakı olmadan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına ümid etməyə dəyməz. Təəssüf ki, Moskva münaqişənin nizamlanmasından çox, KTMT, Avrasiya İttifaqı və s. kimi yeni şəkildə regionda öz əvvəlki üstünlüyünü bərpa etmək üçün ondan və öz vasitəçi vəziyyətindən istifadə etməyi düşünür. Rusiya rəhbərliyi hələ ki, dərk etmir ki, yalnız Moskvaya doğru birtərəfli istiqamət təkcə Gürcüstan və Azərbaycanın deyil, hətta Ermənistan da maraqları çərçivəsində deyil, Rusiyanın mövqeyində dəyişiklik və konstruktiv təşəbbüslərin irəli sürülməsini gözləməyə ehtiyac yoxdur".

**PƏRVANƏ**

# Qahirədə "Azərbaycan günü" keçirilib

Müqəddəs Ramazan ayı münasibətilə Qahirədə "Azərbaycan günü" keçirilib. Bu barədə Azərbaycanın Misirdəki səfirliyindən məlumat verilib. Misirin ictimai-siyasi, elm və mədəniyyət xadimlərinin, kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatlarının, işgüzar dairələrin nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbirdə səfir Şahin Abdullayev və İSESCO-un rabitə və ictimaiyyətlə əlaqələr üzrə eksperti Salah Əlcəfəravi çıxış ediblər.

Ş.Abdullayev Azərbaycanın müstəqillik tarixi, Şərqin ilk demokratik respublikası olan Azərbaycan Demokratik Respublikasının yaranması və tənəzzülü barədə danışaraq 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi və Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti, belə bir çətin vəziyyətdə xalqımızın təkidi ilə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı və bununla da Azərbaycanın müasir tarixində yeni bir mərhələnin başlanması haqqında ətraflı məlumat verib.

Səfir ümummilli lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bu gün bir çox uğurlara imza atdığını və sürətlə inkişaf etdiyini qeyd edib.

Azərbaycanın tarixən İslam mədəniyyətinin inkişafında mühüm rol oynadığını və hazırda inkişafına görə İslam dünyasının fəxr edə biləcəyi bir dövlət olduğunu vurğulayan S.Əlcəfəravi Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, Xocalı faciəsi və Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində İslam mədəniyyət abidələrinin məhv edilməsi məsələlərinə diqqəti yönəldib.

Azərbaycanın müstəqillik yolu və iqtisadi inkişaf modeli, qısa müddət ərzində əldə etdiyi iqtisadi və sosial nailiyyətlər, uğurlu sosial və təhsil siyasəti barədə ətraflı məlumatlar iştirakçıların xüsusi marağına səbəb olub. Ş.Abdullayev iştirakçıların müxtəlif suallarını cavablandırıb, keçid yolunu uğurla keçmiş Azərbaycanın inkişaf modeli təcrübəsi ilə bölüşüb. Tədbirdə Azərbaycanın müstəqillik və inkişaf yolunu əks etdirən sənədli film nümayiş olunub. Azərbaycanın mədəniyyətini və incəsənətini əks etdirən əyani vasitələr, kitablar və jurnallar, xüsusilə nəfis tərtibatda və ərəb dilində çap edilmiş "İrs" jurnalı iştirakçılar tərəfindən xüsusi maraqla qarşılanıb.

**S.MÜRVƏTQIZI**

# Həsən Seyidov — 80

# Xalqa təmənnasız xidmət nümunəsi



Tarixən dönə-dönə təsdiq olunmuş fikirdir: son hökmü zaman verir. Yaxşının yaxşı, dahinin dahi, müdrikin müdrik qiymətini yalnız zaman verə bilir və bu hökm həmişə son və qəti olur. Bəzən bu hökm vaxtında verilir və tarixi şəxsiyyət, yaxud hər hansı tarixi hadisə zamanında özünün layiq olduğu qiyməti alır. Bəzən isə hökm gecikir və elə olur ki, son və qəti qərarın verilməsini 50 il, hətta 100 il gözlənilir. Ancaq bütün bunlara baxmayaraq zamanın süzgəcindən keçib seçilmək, dövrünün yüksək zirvələrinə qalxmaq, millət və xalq qarşısında yaddaqalan xidmətlər göstərmək və bu xidmətlərinə görə xalqın tarixinə öz adını qızıl hərflərlə yazmaq böyük xoşbəxtlikdir. Hətta insan özü dünyasını dəyişəndən sonra da unudulmursa, uzun zaman xalqının hafizəsində yaşayırsa və zaman-zaman xoş xatirələrlə yad edilirsə, bunun özü də bir xoşbəxtlikdir. Belə xoşbəxt taleli insanlardan biri də sovet Azərbaycanı dövründə yetişmiş görkəmli dövlət və ictimai-siyasi xadim, ulu öndər Heydər Əliyevin xeyir-duası ilə uzun müddət Azərbaycan KP MK-nın katibi və Nazirlər Sovetinin sədri olmuş Həsən Seyidovdur. Bu il avqustun 16-da Həsən Nemət oğlu Seyidovun anadan olmasının 80 illiyi tamam olur.

Bu gün öz dövrünün vicdanlı və təmiz kadrlarından olmuş, xalqı arasında bütün həyatı boyu müsbət imic sahibi olmuş Həsən Seyidovun xoş duyğularla xatırlanmağa tam haqqı çatır. Bu haqqı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərliyində xalqı üçün böyük işlər görmüş, nəhayət, özünün gərəkli ictimai-siyasi fəaliyyəti ilə Heydər Əliyevin sınanılmış silahdaşları arasında özünə layiqli yer tutmuş Həsən Nemət oğlunun özü qazanmışdı, özünün təmənnasız, yaddaqalan xidmətləri ilə, təmiz kommunist vicdanı, nurlu çöhrəsi, düz sözü, düzgün əməli ilə qazanmışdı. Həsən Seyidovun adı çəkiləndə bu gün də onu məhz bu xüsusiyyətlərinə görə yada salır, hamının yaddaşında o, belə nurlu bir insan olaraq qalır.

Təbii ki, bu gün — Həsən müəllimin 80 illik yubileyi günlərində biz onun Azərbaycan xalqı qarşısındakı layiqli xidmətlərini bir daha xatırlamalıyıq. Amma məsələ bundadır ki, onun bütün şüurlu fəaliyyəti ulu Heydər Əliyevin rəhbərliyi dövrünə təsadüf edir və əsasən, 1969-1982-ci illəri əhatə edən bu dövrün necə qaynar bir zaman kəsiyi olduğu çoxlarının yadındadır. Ona görə də o dövrdə görülmüş hər hansı bir iş, yaxud rəhbər vəzifəyə seçilmiş hər hansı şəxsiyyət haqqında danışarkən mütləq Heydər Əliyevi xatırlamalısan. Bütün işlər məhz onun xeyir-duası və rəhbərliyi ilə görülür, bu işi görən kadrlar da məhz Heydər Əliyev tərəfindən seçilib bu və ya digər vəzifədə yerləşdirilirdi. Həsən Seyidovu da Heydər Əliyev seçib irəli çəkmiş, ona Azərbaycan KP MK-nın şöbə müdiri, çox keçmədən katibi vəzifələrini etibar etmişdi. 1981-ci ildə isə ulu öndər onu respublika Nazirlər Sovetinin sədri vəzifəsinə irəli çəkmişdi.

Vaxtilə Türkiyə Cümhuriyyətinin qurucusu və banisi Mustafa Kamal Atatürkə Zəki adlı gənc bir həkim belə demişdi: "Siz komandan olaraq başarılı, dövlət adamı olaraq böyük, lider olaraq bulunmaz bir insansınız! Doğruların içindən ən doğru olanı seçir, seçdiyiniz doğrularla milləti inandırırsınız! Ona görə biz sizə güvənirik!" Bəli, "doğruların içindən ən doğru olan seçmək" və "milləti inandırmaq" bacarığı dahi şəxsiyyətlərin ən nadir qabiliyyətlərindən biridir. Şübhəsiz ki, belə olmasa, insan lider səviyyəsinə yüksələ bilməz. Liderlik zirvəsi ancaq və ancaq işlə, əməllə fəth oluna bilir. Açıq etiraf etməliyik ki, bu fikri cəsarətlə Heydər Əliyevə də aid etmək olar. O, heç vaxt seçimində yanılmamışdı: istər hər hansı siyasi addımı atanda, istərsə də hər hansı kadrı seçəndə. Tarix sübut etdi ki, ulu öndər Həsən Seyidov seçimində də yanılmayıb...

Həsən Nemət oğlu 1971-ci ildə Heydər Əliyevin diqqətini cəlb edənə qədər Azərbaycan sənayesi sahəsində böyük bir yol keçmiş, təcrübə toplamışdı. 1932-cı il avqustun 16-da ulu Borçalının Qaçağan kəndində dünyaya göz açmış, 1951-1956-cı illərdə Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitet) ali təhsil almış gənc Həsən 1956-1965-ci illərdə o dövrün məşhur sənaye müəssisələrindən olan Leytenant Şmidt (indiki Səttarxan) adına zavodda usta köməkçisi, texnoloq, növbə rəisi, sahə rəisi, sex rəisinin müavini, sex rəisi, baş mühəndisin müavini vəzifələrində çalışmışdı. Nəhayət, 1965-ci ildə o, kollektiv üçün gördüyü böyük işlər nəzərə alınaraq zavodun direktoru vəzifəsinə təyin olunub. Həmin zavodda keçən 15 illik dövrü həyatının ən əlamətdar illəri hesab edən Həsən Seyidov sonralar xatırlayırdı: "Mən o adamlara minnətdaram ki, mənə qayğı göstərir, yetişdirir, irəli çəkir, ictimai işlərə cəlb edir, dünyagörüşümü artırmağıma kömək edirdilər. Onlar mənim işə münasibətimi, bir yerdə, bir kollektivdə çalışdığım insanlara qarşı xoş rəftarımı, eləcə də mənim bacarığımı görüb qiymətləndirirdilər. Mən böyük bir kollektivə, nəhəng bir istehsalat sahəsinə yenicə düşmüş gənc kadr kimi bütün bacarığımla, var qüvvəmlə çalışdığım kimi, zavod kollektivi də mənim bu işimə, sevdiyim kollektivə münasibətimə çox yüksək qiymət verdi, uzaq Borçalıdan gəlmiş, bu boyda şəhərdə heç kəsi olmayan bir gənci irəli çəkdi"...

O illərdə Şmidt zavodunda Həsən Seyidovla çiyin-çiyinə işləmiş insanlar xatırlayırlar ki, onun gərgin əməyi, işgüzarlığı sayəsində müəssisədə nəhəng yenidənqurma işləri görülüb, yeni istehsal sahələri yaradılıb, ən müasir texnologiya və avadanlıqlar alınıb, direktor özü yeni səmərələşdirici təklifləri ilə ad qazanıb. İttifaq əhəmiyyətli müəssisə olan zavodun ən aktual problemləri ilə bağlı mütəmadi olaraq Moskva qarşısında məsələlər qaldırılıb. Eyni zamanda, əməkçilərin sosial problemlərinin həllinə, xüsusən onların mənzillə təminatı məsələsinə xüsusi diqqət yetirilib. Beləliklə, zavod təkcə respublikada deyil, bütün ittifaq miqyasında məşhurlaşıb, böyük nüfuz qazanıb. Yorulmadan çalışan gənc direktorun şöhrəti də respublikanın hüdudlarını aşıb.

Nəhayət, 1971-ci ilin əvvəllərində hələ 39 yaşı tamam olmamış Həsən Seyidov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin məsləhəti ilə MK-ya sənaye şöbəsinin müdiri vəzifəsinə irəli çəkilir. O vaxt Heydər Əliyevin rəhbərliyi ilə respublikada böyük dəyişikliklər, yeniləşmələr dövrü başlamışdı. Gənc və enerjili birinci katib qarşısına qoyduğu böyük perspektiv planların reallaşmasına ən əvvəl ciddi kadr siyasəti ilə başlamışdı. Ayrı-ayrı sahələrdə çalışan bacarıqlı, savadlı, lakin diqqətdən kənarda qalmış kadrların seçilib vacib dövlət vəzifələrinə irəli çəkilməsi üçün ardıcıl tədbirlər görülürdü. Heydər Əliyevin etimad göstərərək irəli çəkdiyi kadrlardan biri və bəlkə də birincisi zavod direktoru vəzifəsində özünü müsbət rəhbərlik və insanlıq keyfiyyətləri ilə büruzə vermiş Həsən Seyidov oldu. Həsən Nemət oğlu əvvəlcə təxminən bir ay müddətində MK-nın sənaye şöbəsinin müdiri vəzifəsində çalışdı. 1971-ci ilin martında isə Azərbaycan KP MK-nın sənaye məsələləri üzrə katibi seçildi. 1981-ci ilə qədər tam 10 il müddətində o, həmin vəzifədə çalışdı. 1981-1989-cu illərdə isə ona Azərbaycan SSR Nazirlər Sovetinin sədri kimi məsul bir vəzifə etibar olundu.

Həmin illərdə həyata keçirilən geniş planlar haqqında Azərbaycanın sabiq baş naziri Həsən Həsənovun xatırlamalarında oxuyuruq: "Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ölkəyə yeni ab-hava, yeni dəst-xətt, yeni iş üslubu gətirdi. Heydər Əliyev ölkənin sənaye və kənd təsərrüfatının inkişafına aid yeni konsepsiya irəli sürdü. Bu ondan ibarət idi ki, sənayemiz neftin, kənd təsərrüfatımız isə pambığın monopoliyasından çıxarılmalı idi. Azərbaycanda elektronika, elektrotexnika, radiotexnika, neft emalı, kimya, maşınqayırma sahəsində yeni zavodlar, fabriklər, energetika müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilməli və işə salınmalı idi... Belə bir vaxtda KP MK-nın sənaye üzrə katibi vəzifəsinə məhz Heydər Əliyevin təşəbbüsü ilə və gözlənilmədən dövlət dairələrində az tanınan, bütün fəaliyyəti əsasən bir zavod çərçivəsində keçən, partiya işində elə də böyük təcrübə toplamayan, ixtisasca neftçi olmayan, yaşca çox gənc olan Həsən Seyidov seçildi. Beləliklə, Həsən Seyidov Heydər Əliyevin yeni komandasının, demək olar ki, ən ilk üzvlərindən biri oldu".

Sonra Həsən Seyidovun iş metodları haqqında söhbət açan Həsən Əziz oğlu qeyd edir ki, sənaye müəssisəsində qazandığı təcrübəni, işgüzarlığı, yüksək iş tempini Həsən Seyidov Mərkəzi Komitəyə gələndə özü ilə gətirdi. Elə Azərbaycan KP və respublika Nazirlər Sovetində sonrakı 20 illik fəaliyyəti də sübut etdi ki, Həsən Seyidov irimiqyaslı dövlət xidmətinə tam layiq olan bir şəxsiyyətdir. "Azərbaycan KP MK-nın katibi və Nazirlər Sovetinin sədri vəzifələrində işləyərkən Həsən Seyidovun fəaliyyətini yaxından izləmək mənə də nəsib olub. Onun ilk günlərdən müşahidə etdiyim ən əlamətdar keyfiyyəti bu idi ki, ilk növbədə özünə qarşı amansız, sonra isə ətrafdakılara qarşı tələbkar idi. Onun işgüzarlığı adamı heyrətləndirirdi. Heydər Əliyevin tələb etdiyi yeni iş üslubu, yəni özünə və tabeçiliyində olanlara qarşı qayğıkeş və tələbkar olmaq, şəxsi nizam-intizamla seçilmək kimi keyfiyyətlər Həsən Seyidovu səciyyələndirən əsas cəhətlər idi... Azərbaycan iqtisadiyyatının inkişafında Həsən Seyidovun böyük xidmətləri var. İyirminci əsrin 20 ilə yaxın bir dövrü (1971-1989-cu illər) ərzində o, çox yüksək vəzifələrdə çalışmış olsa da, həmişə sadəlik, təvazökarlıq və səmimiyyət kimi insani keyfiyyətləri ilə fərqlənib, şəxsi nizam-intizam nümunəsi olub və hamımızın qəlbimizdə belə bir Həsən Seyidov yaşayır"...

Uzun illər Həsən Nemət oğlu ilə çiyin-çiyinə işləmiş dövlət xadimlərindən AMEA-nın həqiqi üzvü, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət Mükafatı laureatı, Azərbaycan Uşaq Fondunun sədri İsmayıl İbrahimovun Həsən Seyidov haqqında yığcam fikirləri özünün orijinallığı ilə seçilir: "O dövrdə bu qədər böyük işlərin görülməsi, şübhəsiz ki, Heydər Əliyevin rəhbərliyi ilə Həsən Seyidovun, eləcə də o dövrdə çalışmış başqa rəhbər kadrların gərgin əməyi, böyük zəhməti nəticəsində mümkün olmuşdur. Bu mənada Həsən Seyidov Azərbaycanın iyirminci əsr tarixində ən yaxşı direktor, ən yaxşı katib, ən yaxşı baş nazir kimi tanınmış, özünün vətənpərvərliyi, zəhmətkeşliyi, yüksək intellekti ilə respublika ictimaiyyətinin böyük hörmətini qazanmışdır. Həsən Seyidov Azərbaycan tarixində özünə məxsus yer tutmuş dövlət xadimlərindəndir. O, Azərbaycan xalqı üçün çox böyük işlər görmüşdür. Bunu xalqımız görüb layiqincə qiymətləndirmişdir".

Həsən Seyidovun Azərbaycan hökumətinə rəhbərlik etdiyi illər ölkənin sosial-iqtisadi inkişafında olduqca əhəmiyyətli bir dövr oldu. Elmi-texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi hesabına respublika iqtisadiyyatının inkişafına yeni dinamizm verildi, maşınqayırmanın yeni istiqamətlərinin inkişafı üçün şərait yaradıldı. İstehsalın səmərəliliyi artdı, əhalinin məşğulluğu sahəsində ciddi uğurlar qazanıldı, insanların maddi rifahı yüksəlməyə başladı. Elektronika, radiotexnika, hesablama texnikası istehsalı inkişaf tapdı, dəzgahqayırma və avtomobilqayırma sahələrinin əsası qoyuldu. Bakı şəhərində iri sənaye müəssisələri tikilib istifadəyə verildi. Respublikada 200-ə qədər yeni iri müəssisə tikildi. İnsanların sosial problemlərinin həlli üçün böyük işlər görüldü. Ümumiyyətlə, ölkədə Azərbaycan Respublikasının mövcud olduğu bütün dövr ərzindəkinə bərabər böyük bir istehsal potensialı yaradılmasına nail olundu.

Həsən Seyidovun Azərbaycan xalqı və dövləti qarşısındakı şərəfli xidməti görkəmli ziyalımız, mərhum millət vəkili Şamil Qurbanovun "Nəriman Nərimanov dünyası" kitabında da öz layiqli qiymətini alıb: "Borçalıdan böyük yazıçılar, dövlət xadimləri, görkəmli ziyalılar yetişmişdir. 1918-ci ildən 1990-cı ilə qədərki təxminən 70 ildə Borçalı Azərbaycana dörd dövlət rəhbəri vermişdir. Onlar son dərəcə möhkəm əqidəli, beynəlmiləlçi, alovlu vətənpərvər idilər. Bunlar Əlimərdanbəy Topçubaşov, Nəriman Nərimanov, Həsən Seyidov, Həsən Həsənov kimi xas poladdan tökülmüş insanlardır... Xalqına, vətəninə min bir tellə bağlı olan şəxsiyyətlərdir".

Həsən Nemət oğlunun əməyi Azərbaycan və keçmiş SSRİ dövləti tərəfindən layiqincə qiymətləndirilib. O, müxtəlif illərdə o dövrün yüksək dövlət mükafatları sayılan "Lenin" ordeni, üç dəfə "Qırmızı Əmək Bayrağı" ordeni və müxtəlif medallarla təltif edilib. Bir neçə dəfə Azərbaycan SSR və SSRİ ali sovetlərinə deputat seçilib.

Həsən Seyidov 2004-cü il dekabrın 9-da 72 yaşında dünyasını dəyişib. O, artıq 8 ildir ki, aramızda yoxdur. Amma son hökmü verən zaman onu hələ uzun illər xalqımızın yaddaşında yaşadacaqdır...

**Paşa BABAKƏRLİ**

## *Aleks:* "Türkiyədə yalnız "Fənərbağça"da oynayaram"




"Fənərbağça" klubunun kapitanı Aleks de Suoza gələcək karyerası haqda danışıb.

Braziliyalı futbolçu "Twitter" sosial şəbəkəsində karyerasını bitirdikdən sonra Türkiyədə qalmayacağını açıqlayıb:

"Karyeramı bitirdikdən sonra Türkiyədə qalmayacağam. Böyük ehtimalla vətənim Braziliyaya qayıdacağam. Digər klublardan gələcək təkliflər məni maraqlandırmır. Çünki Türkiyədə yalnız "Fənərbağça"da oynayaram".

Qeyd edək ki, 2004-cü ildən "Fənərbağça"nın şərəfini qoruyan Aleks keçirdiyi 240 oyunda 136 qola imza atıb.

## *Mansini:* "Titulu qorumaq çempion olmaqdan daha çətindir"



"Mançester Siti" klubunun baş məşqçisi Roberto Mansini yeni mövsüm öncəsi maraqlı açıqlamaları diqqət çəkib. İtaliyalı mütəxəssis çempionluq titulunu qorumağın çox çətin olacağını bildirib: "Son iki ildə çox yaxşı işlər gördük. Növbəti mövsümdə çempionluq uğrunda beş komanda mübarizə aparacaq. Titulu qorumaq çempion olmaqdan daha çətindir. Hər bir klub çempion komandanı məğlub etmək üçün çalışacaq. Yeni mövsümdə ən çətin rəqiblərimiz isə "Mançester Yunayted" və "Çelsi" olacaq".

Komandasının hücum xəttindən razı qaldığını bildirən Mansini bu haqda belə danışıb: "Ceko, Balotelli, Aquero və Tevezlə davam etmək istəyirəm. Son zamanlar bu futbolçular haqda yanlış transfer xəbərləri yazılır. Təbii ki, bunu normal qarşılayıram. Çünki hər komanda belə oyunçulara sahib olmaq istəyir. Ancaq onu deyim ki, bu hücumçuların hamısı komandada qalacaq".

Qeyd edək ki, "Mançester Siti" ötən mövsüm əzəli rəqibi "Mançester Yunayted"lə gərgin mübarizədə İngiltərə çempionluğu sevinci yaşamışdı.

## "Rubin"in hücumçusu rəsmən "Valensiya"da



İspaniyanın "Valensiya" klubu növbəti transferini həyata keçirib.

"As" qəzetinin verdiyi məlumata görə, "yarasalar" "Rubin" (Kazan) klubunun hücumçusu Nelson Valdezi heyətinə qatıb.

"Valensiya" 28 yaşlı futbolçu ilə 3 illik müqavilə imzalayıb. Paraqvaylı futbolçunun La Liqanın ilk turu çərçivəsində "Real" (Madrid) ilə oyunda forma geyinəcəyi bildirilir.

Qeyd edək ki, Valdez ötən mövsüm keçirdiyi 20 oyunda cəmi 3 qola imza atıb.

## 41 yaşlı qapıçı milli komandaya çağırıldı



Türkiyənin "Qalatasaray" klubunun sabiq qapıçısı Fərid Mondraqon 41 yaşında futbol üzrə Kolumbiya milli komandasına çağırılıb. Yığmanın baş məşqçisi Xose Pekerman Mondraqonu Uruqvay və Çili ilə 2014-cü il dünya çempionatının seçmə qrup matçlarına dəvət edib. Hər iki oyun sentyabrda keçiriləcək. Mondraqon bu dəvəti sevinclə qarşılayıb. O, yenidən verilən imkanı layiqincə dəyərləndirməyə çalışacağını bildirib.

Qeyd edək ki, Fərid Mondraqon 2001-2007-ci illərdə "Qalatasaray"ın formasını geyinib. Hazırda o, 1990-cı ildə peşəkar karyerasına başladığı Kolumbiyanın "Deportivo Kali" klubunda çıxış edir.

## *Ramin Musayev:* "Bizim teleyayımdan bir manat belə gəlir əldə etmək fikrimiz yoxdur"

### Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayevin Qol.Az saytına müsahibəsi

***— Premyer Liqanın ilk iki turu canlı yayımlanmayıb, azarkeşlər futbolsuz qalıblar. Vəziyyət nə zaman düzələcək?***

— Biz bu haqda düşünürük. Çalışırıq nəsə edək. Amma asan məsələ deyil. Ona görə ki, bizim teleşirkətlərin heç biri Azərbaycan futboluna diqqət ayırmaq istəmir. Elə fikirləşirlər ki, irəli sürdüyümüz şərt pul qazanmaq üçündür. Heç də belə deyil. Söhbət burda klublara dəstəkdən gedir. Dünyanın heç bir yerində klub yayıma görə pul vermir, əksinə pul qazanır. Bizdə isə əksinədir. Bunun qarşısını almaq üçün PFL yayım hüququnu satmaq qərarına gəldi. Buradan götürəcəyimiz maliyyə klublar arasında bölünəcək, xüsusilə bu, uşaq futbolunun inkişafına sərf olunacaq. PFL-in bir manat belə gəlir əldə etmək fikri yoxdur.

***— Amma tələb etdiyiniz 500 min manat da telekanalları razı salmır.***

— Söhbət təkcə puldan getmir, axı. Gəlsinlər, söhbət edək də. Müəyyən oyunların canlı yayımlanmasına söz verən yoxdur. Biz demirik ki, çempionatdakı 198 oyunun hamısı nümayiş etdirilsin. Heç olmasa, bölgələrdəki matçlara da diqqət ayrılsın, bütün mövsüm ərzində "Turan" və "Kəpəz"in çox demirəm, dörd ev oyunu canlı nümayiş etdirilsin. Bununla da razılaşan yoxdur.

***— Hər hansı güzəştə gedəcəksinizmi?***

— Bəli.

***— Deyə bilərsinizmi, söhbət nə kimi güzəştlərdən gedir?***

— Qiymətdə güzəşt edəcəyik.

***— Belə fikirlər var ki, bu turun oyunları da canlı göstərilməyəcək.***

— Biz çalışırıq ki, bu baş verməsin.




***— Premyer Liqanın ilk iki turuna necə qiymət verərdiniz?***

— Çox maraqlı oyunlar keçir. Demək olmaz ki, mövsüm təzə başlayıb. Narazı deyiləm.

***— Hakimliyin durumu barədə fikirləriniz necədir?***

— Hələlik heç bir klubdan şikayət, narazılıq yoxdur.

***— FİFA referisi Anar Salmanovun İspaniya və Səudiyyə Ərəbistanı komandalarının oyuna təyinatı xəbərini necə qarşıladınız?***

— Anar Salmanov öz zəhməti, peşəkarlığı ilə bunu qazandı. Bu məsələdə AFFA-nın böyük zəhməti var. AFFA rəhbərliyi dəyişəndən sonra hakimliyə diqqət və qayğı artıb. Hər il 40-50 hakim ildə iki dəfə — qışda və yayda xaricdə təlim-məşq toplanışında olur, əcnəbi komandaların iştirakı ilə oyunlar idarə edir. Hələ indiyədək xaricilərdən narazılıq eşitməmişik. Hakimliyin inkişafında AFFA rəhbərliyinin zəhməti böyükdür. Bütün bunların nəticəsidir ki, bu gün hakimimiz İspaniyanın oyununa təyinat alır.

***— Çempionatın ikinci turunda "Neftçi" — "Qarabağ" oyunu təxirə salınmalıydı. Belə fikirlər var ki, millinin baş məşqçisi Berti Foqtsun istəyi ilə həmin görüş baş tutub.***

— Xeyr, belə bir şey olmayıb. Sadəcə, "Neftçi" əvvəlcə şifahi şəkildə soruşmuşdu ki, oyunu təxirə salmaq olarmı? Amma danışığımızdan bir saat sonra klubun prezidenti Sadıq Sadıqov mənə zəng edib dedi ki, dincəlmək olmaz. Yeganə onu xahiş etdi ki, "Qəbələ"ylə matç avqustun 19-dan18-nə keçirilsin.

## "Kamran Ağayev əsas yox, əvəzedici komandaya qaytarılıb"



"Kamran Ağayevin adı sifariş ərizəsinə salınıb. Lakin bu o demək deyil ki, Kamran komandanın əsas heyətinə qaytarılıb. Biz onu əvəzedicilərin heyətinə qaytarmışıq ki, transfer olunana qədər formasını itirməsin".

Qol.Az saytına açıqlamasında bu sözləri "Xəzər Lənkəran" klubunun icraçı direktoru Höccət Hacıyev deyib.

"Kamran Ağayev klubun heyətinə birdəfəlik qayıda bilərmi" sualını cavablandıran Hacıyev bunları söylədi: "Bu haqda qərarı yalnız rəhbərlik verə bilər. Mən bu barədə dəqiq bir söz deyə bilmərəm".

Xatırladaq ki, "Xəzər Lənkəran" bir müddət əvvəl qapıçısı Kamran Ağayevi transferə çıxarsa da, onun adını Peşəkar Futbol Liqasına göndərdiyi sifariş ərizəsinə salıb.

Rəşad Məcid, Arif Əmrahoğlu, Muxtar Kazımoğlu, Kamran İmranoğlu Aydın Kərimova bacısı

**Zərifə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdam Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Gülnar Abbasova və kollektivi Fəridə Bağırovaya

**ATASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Seyid Camal Əzimbəyli əməkdar artist, tarzən Elçin Həşimovun atası

**Ləzgi kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

AtaBankın Nərimanov filialı tərəfindən fiziki şəxs Bayramov Babək Səxavət oğluna (VÖEN 1501867802) verilmiş nağd pul almaq üçün qəbz kitabçası itdiyi üçün etibarsız sayılır.

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2769
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA v□ "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.